

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 61 (21.722)

1 aprel 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar martın 31-də bir qrup hərbçimizlə görüş keçirib.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevə raport verib.

Dövlətimizin başçısı görüşdə çıxış edərək bildirib ki, aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir.

Ali Baş Komandan deyib ki, aprel döyüşləri, eyni zamanda, ordumuzun peşəkarlığını göstərmişdir. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu. Bu gün bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər bizə imkan verir ki, təmas xəttində mövcud olan vəziyyətə tam nəzarət edək və istədiyimiz tədbiri görə bilək.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov çıxış edib.

Sonda xatirə şəkli çəkdirilib.

## Mart qırğınları azərbaycanlılara qarşı ermənilərin planlı şəkildə həyata keçirdikləri soyqırımı siyasətinin mərhələlərindən biridir

***AMEA Naxçıvan Bölməsində "Azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı siyasəti" mövzusunda keçirilən elmi konfransda əvvəlcə faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev 1918-ci ilin mart ayında ermənilər tərəfindən Bakı şəhəri ilə yanaşı, Şamaxıda, Qubada, Qarabağda, Naxçıvanda, Zəngəzurda və digər bölgələrdə dinc əhaliyə qarşı törədilən tarixdə görünməmiş kütləvi qətl və qırğınlar barəsində ətraflı məlumat verib. Bildirib ki, mart qırğınları azərbaycanlılara qarşı ermənilərin planlı şəkildə həyata keçirdikləri soyqırımı siyasətinin mərhələlərindən biri olub. 1918-1920-ci illərdə xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış yerləri talan ediləreк yandırılıb, dağıdılıb, eyni zamanda qadın, uşaq, qocalar vəhşicəsinə qətlə yetiriliblər. Bir çox dövlətlərin arxivlərində belə faciələrlə bağlı arxiv materialları var.



Tədbirdə Mir Möhsün Nəvvabın "1905-1906-cı illər erməni-müsəlman davası", Məmməd Səid Ordubadinin "Qanlı illər" adlı dəyərli kitablarından və digər tədqiqat əsərlərindən bəhs olunaraq bildirilib ki, həmin kitablarda saxtakar ermənilərin təcavüzkar siyasətlərini təsdiq edən olduqca çox mühüm tarixi sənədlər işıqlandırılıb. Vurğulanıb ki, ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri etnik təmizləmə, deportasiya və soyqırımı aktlarının ifşa edilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrinə ümummilli lider Heydər Əliyevin 26 mart 1998-ci ildə imzaladığı fərmanla hüquqi-siyasi qiymət verilib.

Tədbirdə azərbaycanlılara qarşı müxtəlif mərhələlərdə törədilən ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrin məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək hər bir kəsin mühüm vəzifəsi olduğu vurğulanıb. Eyni zamanda qaniçən erməni cəlladlarının Azərbaycan xalqına qarşı törətdikləri soyqırımı faktlarının bütün dünya ictimaiyyətinə çatdırılmasında ziyalıların virtual məkanın – internetin geniş imkanlarından istifadə etməsinin zərurətindən danışılıb.

Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri Emin Şıxəliyev "XX yüzilliyin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımlar", həmin institutun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev "Ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasəti (1918-1920-ci illər)", tarix üzrə fəlsəfə doktoru, dosent İlhami Əliyev "Ümummilli lider Heydər Əliyev və azərbaycanlıların soyqırımı və deportasiyası məsələsi", elmi işçi, tarix üzrə fəlsəfə doktoru Elnur Kəlbizadə "Ermənilərin azərbaycanlılara qarşı ərazi iddialarında Naxçıvan", tarix üzrə fəlsəfə doktoru, dosent Toğrul Xəlilov "Azərbaycanlıların indiki Ermənistan ərazisindən deportasiyası və onun nəticələri" mövzularında məruzələrlə çıxış ediblər.

Konfransda 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü və Xocalı soyqırımına dair real faktları əks etdirən fotoşəkillər və sənədlərdən ibarət slayd nümayiş etdirilib.

Qeyd edək ki, bölmənin Mərkəzi Elmi Kitabxanasında Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar kitab, qəzet, jurnallardan ibarət sərgi təşkil olunub.

**AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi**

## Xatirə Muzeyi ilə muxtar respublikanın 200-dən çox təhsil müəssisəsi arasında interaktiv əlaqə yaradılıb



***Martın 31-də Naxçıvan şəhərindəki Xatirə Muzeyi ilə muxtar respublikanın ümumtəhsil məktəbləri arasında interaktiv əlaqə yaradılıb. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən və 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş interaktiv dərs muxtar respublikanın 200-dən çox məktəbində izlənilib.***

Xatirə Muzeyinin bələdçisi Rəqsanə Kərimova bildirib ki, muzeydə 2 mindən çox eksponat var və onlardan 400-ə yaxını ekspozisiyada nümayiş etdirilir. Ötən əsrin əvvəllərindən başlayaraq təcavüzkar erməni daşnaklarının azərbaycanlılara qarşı müxtəlif illərdə törətdikləri dəhşətli cinayətlərin izləri bu eksponatlarda öz əksini tapıb. Xüsusilə 1905-1907-ci, 1918-1920-ci illərdə baş verən kütləvi soyqırımı aktlarını, həmçinin 1948-1953-cü illərdə azərbaycanlıların öz dədə-baba torpaqlarından deportasiyasını, 1990-cı il 20 Yanvar, 1992-ci il Xocalı faciələrini özündə əks etdirən eksponatlar milli tariximizi öyrənmək baxımından əhəmiyyətlidir. Muzeydə ermənilərin Bakıda, Şamaxıda, Qarabağda, Naxçıvanda və digər bölgələrimizdə törətdikləri soyqırımları əks etdirən sənədlər, şəkillər, hadisələri tarixi faktlarla oxuculara çatdıran qiymətli kitablar vardır.

Qeyd olunub ki, ötən əsrdə mənfur ermənilər onlara himayədarlıq edənlərin dəstəyi ilə xalqımıza qarşı bir neçə dəfə soyqırımı aktı həyata keçiriblər. Miqyasına görə bu faciələrdən ən böyüyü 31 mart soyqırımıdır. 1918-ci ilin martında törədilmiş bu qanlı faciə paytaxt Bakı şəhəri də daxil olmaqla, ölkəmizin bir sıra regionlarını, o cümlədən muxtar respublikamızı da əhatə edib. Bəhs olunan illərdə xalqımıza qarşı soyqırımı törədilməsində əsas məqsəd torpaqlarımızın işğalı və "böyük Ermənistan" dövlətinin yaradılması idi. Hazırda muzeydə bu faciəli hadisələri özündə əks etdirən müxtəlif fotoşəkillər, xəritələr və sənədlər nümayiş etdirilir.

Vurğulanıb ki, ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı aktları və deportasiya ilə bağlı məsələyə ilk siyasi-hüquqi qiymət ümummilli lider Heydər Əliyev tərəfindən verilib. Ulu öndərin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərman bu baxımdan çox mühüm tarixi sənəddir.

Şagirdlərə məlumat verilib ki, dahi şəxsiyyət Heydər Əliyevin bu sahədəki fəaliyyətini ölkə Prezidenti cənab İlham Əliyev bu gün uğurla və qətiyyətlə davam etdirməkdədir. Hazırda dövlət başçısının rəhbərliyi ilə erməni təcavüzünün nəticələrinin aradan qaldırılması, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması, ölkəmizin haqq səsinin və ədalətli mövqeyinin dünya dövlətləri tərəfindən müdafiəsi istiqamətində məqsədyönlü iş aparılmaqdadır. Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, dövlətimizin iqtisadi və siyasi gücü artdıqca onun beynəlxalq nüfuzu da güclənir, Azərbaycanın haqlı mövqeyini müdafiə edən ölkələrin və beynəlxalq təşkilatların sayı artır.

Dərsdə azərbaycanlılara qarşı ayrı-ayrı vaxtlarda həyata keçirilən soyqırımı və deportasiya siyasətinin acı nəticələrini özündə əks etdirən eksponatlar videobağlantı vasitəsilə şagirdlər tərəfindən izlənilib və müxtəlif bölmələrdə yerləşən eksponatlar haqqında müfəssəl məlumat verilib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamı muxtar respublikada elektron təhsilin tətbiqinin genişləndirilməsinə, eyni zamanda təhsil müəssisələrində virtual tədris mühitinin formalaşdırılmasına hərtərəfli şərait yaradıb.

**Xəbərlər şöbəsi**



Naxçıvan şəhər 3 nömrəli tam orta məktəb



Şərur şəhər 2 nömrəli tam orta məktəb



Babək qəsəbə 1 nömrəli tam orta məktəb



***85 il bundan əvvəl – 1932-ci il aprelin 1-də Naxçıvanda ilk dəfə olaraq Radio Verilişləri Komitəsi yaradılıb. 1963-cü il martın 12-də qısa xəbərlərlə televiziyanın ilk sınaq yayımı həyata keçirilib, avqust ayının 14-də isə Naxçıvan MSSR Dövlət Televiziya və Radio Verilişləri Komitəsi təşkil olunub. Həmin dövrdə maddi-texniki bazası zəif olan, cəmi bir baş redaksiya ilə fəaliyyət göstərən Naxçıvan Dövlət Televiziyasının yayım dairəsi də olduqca məhdud idi.***

*Naxçıvan Dövlət Teleradiosu – 85*

# Naxçıvan Dövlət Televiziyası və Radiosu yeni inkişaf mərhələsindədir

Naxçıvan teleradiosu 1969-cu ilədək yalnız Naxçıvan şəhərində yayımlanıb. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın rəhbəri seçilməsindən sonra bütün sahələrdə olduğu kimi, televiziya və radio da yeni inkişaf mərhələsinə qədəm qoydu. Ulu öndərimizin tapşırığı ilə qısa müddət ərzində Azərbaycan Televiziyasının verilişlərinin muxtar respublika ərazisində yayımlanması və yerli teleradionun imkanlarının genişləndirilməsi üçün texniki məsələlər öz həllini tapdı, verilişlərin qəbulu üçün 10-dan çox radio-televiziya xətti və yarımstansiyalar quraşdırıldı. Bununla da, teleradionun muxtar respublikanın əksər bölgələrində yayımlanmasına nail olundu.

***"Televiziya məktəb qədər vacib bir sahədir"***, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə Naxçıvan Dövlət Televiziyası və Radiosu böyük inkişaf yolu keçib, teleradio müstəqil kanalda yayımlanmağa başlayıb. Televiziyanın maddi-texniki bazası xeyli gücləndirilib, teleradionun binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib, ən müasir texniki avadanlıqlarla təchiz edilib. Muxtar respublikada yeni yayım avadanlıqlarının tətbiqi nəticəsində analoq yayım yüksəkkeyfiyyətli rəqəmsal yayımla əvəzlənib, Naxçıvan Dövlət Televiziyasının yüksəkkeyfiyyətli HD formatda yayımına başlanılıb. İlbəil avadanlıqları yeniləşdirilən dövlət teleradiosunda bu gün dünyanın qabaqcıl ölkələrinin teleradiolarında istifadə olunan ən müasir texniki avadanlıqlar quraşdırılıb. Maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə ötən il teleradionun sistem otağına ehtiyat siqnalçevirici, arxiv üçün 80 terabaytlıq yeni server alınıb quraşdırılıb, arxivin həcmi 120 terabayta çatdırılıb. Dövlət əhəmiyyətli tədbirlərin çəkilişi, montajı və yayımı üçün ən son texnologiyaya əsaslanan 2 rəqəmsal videokamera dəsti, 2 videomontaj dəsti və 1 efirə çıxış kompüteri alınıb. Yeni çəkiliş pavilyonları yaradılıb, müasir virtual studiya qurulub, bütün pavilyonlarda yeni səs və işıq sistemləri quraşdırılıb. Ötən il redaksiyaların iş fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün 4 videomontaj və 5 səsyazma otağı yaradılıb, yeni qurulan montaj otaqlarında 3 yeni videomontaj dəsti quraşdırılıb.

Teleradioda kadr hazırlığı sahəsində də tədbirlər görülür, kinooperatorlar, rejissorlar və aparıcılar üçün davamlı olaraq təkmilləşdirmə kursları keçirilir. Ötən dövrdə 50-dən artıq kadr, o cümlədən Naxçıvan Dövlət Universitetinin televiziyaya hamiliyə verilən Jurnalistika ixtisası üzrə 18 gənc sınaq müddəti dövründə hazırlanaraq Naxçıvan teleradiosunda işə qəbul olunub. Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi tərəfindən "Universitet" televiziyasının və "Nuhçıxan" radiosunun fəaliyyəti də diqqətdə saxlanılmış, televiziyanın və radionun audioteka və videotekası zənginləşdirilmişdir. Belə ki, 50-dən çox audio və videomaterial universitetin arxivinə daxil edilmişdir. Yaradıcı işə də köməklik göstərilmiş, həftəlik proqram cədvəlinin tərtibi istiqamətində iş aparılmışdır. Jurnalistika ixtisasının tələbələri ilə yanaşı, "Universitet" televiziyasının və "Nuhçıxan" radiosunun əməkdaşlarının da teleradioda təcrübə keçməsinə şərait yaradılmışdır.





İstər Naxçıvan Dövlət Televiziyasında, istərsə də Naxçıvan Dövlət Radiosunda yaradılan maddi-texniki imkanlar, öz növbəsində, yaradıcı işin keyfiyyətinə də təsir edib. Əgər əvvəllər Naxçıvan Dövlət Televiziyasının istehsalı olan telematerialllar ümumi efirin 20-25 faizini təşkil edirdisə, hazırda bu rəqəm 60-65 faizədək yüksəlib. Son illər ərzində 60-dan artıq sənədli və televiziya filmi çəkilib. Naxçıvan Dövlət Televiziyasının öz istehsalı olan verilişlər və filmlər Türkiyənin TRT, ölkəmizdə Azərbaycan Dövlət Televiziyası, İctimai Televiziya, AZƏRTAC informasiya agentliyi vasitəsilə də tamaşaçılara təqdim edilir.

Bu gün dünyanın istənilən yerindən doğma kanalımızı internet vasitəsilə izləmək mümkündür. 2016-cı il oktyabrın 17-də – Azərbaycanın dövlət müstəqilliyinin 25-ci ildönümü ərəfəsində Naxçıvan Dövlət Televiziyası internet üzərindən yayıma başladı. Bu, 25 ildən artıq blokada şəraitində yaşayan muxtar respublikada informasiya blokadasının yarılması demək idi. Bu gün dünyanın istənilən yerində televiziyanın izlənilməsi muxtar respublikanın tanıdılmasına, burada görülən böyük quruculuq tədbirlərinin, insanların yaşayış səviyyəsi, qədim diyarın mədəniyyəti, tarixi-mədəni irsi və milli dəyərləri haqqında məlumatların daha geniş tamaşaçı kütləsinə çatdırılmasına imkan verir.



Naxçıvan Dövlət Televiziyasının internet saytında müntəzəm olaraq izləyicilərə yeni telematerialllar və xəbərlər çatdırılır, rəsmi xəbərlər Azərbaycan, ingilis və rus dillərində təqdim olunur. Sayt mütəmadi olaraq yenilənir, izləyici və tamaşaçıların tələbləri nəzərə alınır, Naxçıvanın tanıdılması və təbliği məqsədilə yeni bölmələr yaradılır. "Naxçıvanşünaslıq" bölməsinin yaradılması da bu məqsədə xidmət edir.

Bu gün geniş izləyici kütləsi toplayan *naxcivantv.az* saytı qədim Naxçıvanın mühüm informasiya mənbəyi olmaqla yanaşı, həm də müstəqil ölkəmizin əsas informasiya portallarından birinə çevrilib. Ötən 5 ayda sayta müraciət edənlərin sayı 2 milyonu ötüb. Muxtar respublikanın qədim tarixi, zəngin mədəniyyəti, müasir inkişafı və turizm potensialı Naxçıvan Dövlət Televiziyası tərəfindən internet üzərindən bütün dünyaya yayılır, izləyicilərə dəqiq və operativ məlumatlar çatdırılır. Bütün bunların nəticəsidir ki, artıq digər informasiya saytları Naxçıvan haqqında informasiya yayarkən, əsasən, *naxcivantv.az* saytına istinad edirlər.

Televiziya son illər sosial şəbəkələrdəki aktivliyini də artırıb, "YouTube", "Facebook", "İnstagram" və "Twitter"də ayrıca səhifələr yaradılıb, bu səhifələrdə televiziyanın 6 mindən artıq materialı yerləşdirilib və ümumilikdə, bu səhifələrə baxış sayı 4 milyonu ötüb.

Naxçıvan Dövlət Radiosunun da avadanlıqları tamamilə yenilənib. Radio hər gün bir-birindən maraqlı verilişlərlə dinləyicilərini salamlayır. Müasir səsyazma avadanlıqları və yayım studiyaları, səs montajları, 5 min giqabaytlıq rəqəmsal arxiv sistemi və digər avadanlıqların quraşdırıldığı radioda günün 18 saatında dinləyicilərin zövqünü oxşayan musiqili verilişlər və canlı proqramlar təqdim olunur.

Hər bir televiziya əməkdaşının üzərinə düşən əsas vəzifə Naxçıvan Muxtar Respublikasındakı inkişafı, sabitliyi, milli dəyərlərimizi və tarixi-mədəni irsimizi təbliğ etmək və bunu dünyaya tanıtmaqdan ibarətdir. Ona görə də muxtar respublikanı tanıtmaqla yanaşı, həm də gənclərə torpağa bağlılıq, vətənpərvərlik hisslərini aşılamaq, maarifçilik işini daha da artıraraq hər yaş kateqoriyasından olan tamaşaçılar üçün məzmunlu verilişlər hazırlayıb təqdim etmək üstün istiqamət kimi götürülür. Ölkəmizdə, o cümlədən muxtar respublikamızda baş verən ən mühüm hadisələri, xəbərləri peşəkarlıq və operativliklə tamaşaçı və dinləyicilərə təqdim edən teleradio jurnalistləri həm də Naxçıvanın sosial-iqtisadi inkişafının, tarixinin, elminin, təhsilinin, mədəniyyətinin, xalq yaradıcılığının, bir sözlə, bütün sahələrin təbliğatçısına çevrilib.

Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi proqram siyasətində televiziya və sənədli filmlərin çəkilərək tamaşaçılara təqdim olunmasını diqqətdə saxlayır. Bu filmlərin tamaşaçı rəğbəti qazanması bir daha təsdiq edir ki, Naxçıvan televiziyası sözdə yox, əməldə böyük dəyişikliklərə doğru gedir və özündə müasir film yaradıcılığı ənənələrini formalaşdırır. Göstərilən hərtərəfli qayğının müqabilində ictimai, siyasi, sosial, iqtisadi, mədəniyyət məsələləri ilə bağlı proqramların, jurnalist araşdırmalarının da keyfiyyəti yüksəldilib, baxımlı tələyihələr əsasında hazırlanan yeni verilişlər tamaşaçı və dinləyicilərə təqdim edilib. Uşaq və yeniyetmələrdə, gənc nəsildə elmə və təhsilə maraq oyada bilən, onların intellektual səviyyəsinin yüksəldilməsinə xidmət edən verilişlər hazırlanıb. İctimai-siyasi, sosial-iqtisadi, mədəniyyət məsələləri ilə bağlı ciddi proqramların, jurnalist araşdırmalarının səviyyəsini müasir tamaşaçının tələbləri səviyyəsinə yüksəltmək üçün televiziya əməkdaşları peşəkarlıq göstərməyə çalışır.

Sürətlə dəyişən və inkişaf edən televiziya və radioda efirə verilən hər bir veriliş gərgin jurnalist əməyinin məhsuludur. Tamaşaçı və dinləyicilərə təqdim olunan veriliş və proqramlar kollektiv əməyin bəhrəsi kimi ortaya çıxır. Hər bir verilişdə mətn müəllifi ilə yanaşı, rejissorun, operatorun, montajçının, musiqi tərtibatçısının hətta heç vaxt efirdə görünməyən işıqçının, mühəndisin, səs operatorunun sürücünün belə, zəhməti, əməyi vardır. Televiziya əməkdaşlarının əməyi də dövlətimiz tərəfindən layiqincə qiymətləndirilir. Son illər onlarla əməkdaş müxtəlif fəxri ad, medal və nişanlarla təltif edilib, əməkdaşların əməkhaqları artırılıb.



Teleradionun qarşıda dayanan əsas hədəfi efir keyfiyyətini və yaradıcı işi daha da yüksəltmək, hazırlanan yeni veriliş və proqram layihələrinin uğurlu icrasına nail olmaqdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasının kütləvi informasiya vasitələrinin fəaliyyəti və qarşıda duran vəzifələr" mövzusunda keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qarşıya qoyduğu vəzifələrin icrası əsas fəaliyyət istiqaməti kimi götürülmüşdür. Müşavirədə keyfiyyətin daha da yüksəldilməsi, dövlət televiziyasının rayonlardakı müxbir postlarının fəaliyyətinin təmin olunması, 2017-ci ilin aprel ayından Naxçıvan Dövlət Televiziyasının və Radiosunun ümumi efir vaxtının artırılaraq 18 saata çatdırılması barədə tapşırıqlar verilmişdir. Verilmiş tapşırıqların icrası istiqamətində rayon icra hakimiyyətlərinin hər birində müxbir postları üçün ayrıca otaq ayrılmış, videomaterialların sürətli ötürülməsini təmin etmək məqsədilə "İntranet" (FTP) şəbəkəsi quraşdırılmışdır. Ötən müddətdə müxbir postlarında fəaliyyət göstərəcək bölgə müxbirlərinin hazırlanması istiqamətində də işlər başa çatdırılmışdır. Naxçıvan Dövlət Televiziyası və Radiosunun efir vaxtının daha 1 saat artırılması istiqamətində də işlər aparılmış, aprel ayının proqram cədvəlində efir vaxtı 17 saatdan 18 saata çatdırılmışdır. Artıq aprelin 1-dən etibarən Naxçıvan Dövlət Televiziyası gündəlik efirini səhər saat $08^{00}$-da başlayacaq və gecə saat $02^{00}$-da başa çatdıracaqdır. Naxçıvan Dövlət Radiosu isə səhər saat $07^{00}$-dan gecə saat $01^{00}$-dək efirdə olacaqdır. Bu gündən etibarən Naxçıvan Dövlət Radiosu da Naxçıvan Dövlət Televiziyasının rəsmi internet saytı *(www.naxcivantv.az)* üzərindən birbaşa yayımlanır. Artıq dinləyicilər həm kompüter, həm də mobil telefonlardan *naxcivantv.az* saytına daxil olaraq Naxçıvan Dövlət Radiosunu internetdən birbaşa dinləyə bilərlər.

*Naxçıvan Dövlət Televiziya və Radiosunun kollektivi bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, muxtar respublikanın sosial-iqtisadi və mədəni inkişafına öz töhfəsini verəcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi***

## Dövlət qayğısı torpaqlardan səmərəli istifadəyə şərait yaradır

*Dağlıq və dağətəyi zonada yerləşən Culfa rayonu muxtar respublikanın aqrar islahatlar aparılan ilk bölgəsidir. Ötən illərdə aqrar islahatlar uğurla başa çatdırılıb, kənd adamları öz torpaqlarının əsl sahibinə çevriliblər. Belə ki, 6656 hektar torpaq sahəsi əhaliyə paylanılıb. Bundan başqa, culfalılar həm də 1635 hektar həyətyanı torpaq sahəsindən istifadə edirlər. Göstərilən dövlət qayğısı, bu sahədə qazanılan uğurlar rayonda aqrar sahənin inkişafına marağı daha da artırıb. Məlumat üçün bildirək ki, 92 min 630 hektar ərazisi olan Culfa rayonunda 1 şəhər, 22 kənd yaşayış məntəqəsi var. Bölgənin əhalisinin sayı 43 min nəfəri ötüb. Bunlardan böyük əksəriyyəti kəndlərdə yaşayır və torpaqlar onların daimi iş yeridir.*

Muxtar respublikanın hər yerində olduğu kimi, ilk vaxtlar bu bölgədə də torpaqlardan səmərəli istifadə olunmasında bəzi çətinliklər yaşanıb. Tədricən hər şey yoluna qoyulub. Genişhəcmli meliorasiya tədbirləri aparılıb, onlarla nasos stansiyası və artezian quyusunda əsaslı təmir və yenidənqurma işləri həyata keçirilərək bu su mənbələri işlək vəziyyətə gətirilib. Bir faktı nəzərinizə çatdıraq. Son illərədək Culfa düzü boş səhranı xatırladırdı. Bu ərazidəki torpaqlar əhaliyə paylanılsa da, su olmaması səbəbindən əkilməmiş qalırdı. Araz çayından buraya nasoslar vasitəsilə su qaldırılması artıq bu ərazini gülüstana çevirib. Torpaq mülkiyyətçiləri burada əkinçiliyin müxtəlif sahələrini inkişaf etdirirlər. Yüz hektarlarla sahə məhz meliorativ tədbirlər hesabına əkin dövriyyəsinə qatılıb. Əkin sahələrinin suvarılmasında Gilançaydan, Heydər Əliyev Su Anbarından, Bənəniyar gölündən götürülən su, həmçinin 30 subartezian və 8 nasos stansiyası vasitəsilə əkinlərin suvarılması həyata keçirilir.

Bölgəyə müxtəlif kənd təsərrüfatı texnikalarının gətirilməsi də diqqət mərkəzində saxlanılıb. Rayonun ən böyük yaşayış məntəqəsi olan Yaycı kəndində "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Culfa-Ordubad bazasının istifadəyə verilməsi, buraya kifayət qədər kənd təsərrüfatı texnikalarının gətirilməsi torpaq mülkiyyətçiləri tərəfindən rəğbətlə qarşılanıb. Bütün bunlar rayonda kənd təsərrüfatının müxtəlif sahələrinin dinamik inkişafında başlıca rol oynayıb. Belə ki, bu gün Culfa rayonunda 208 ədəd müxtəlif kənd təsərrüfatı texnikası və aqreqatdan istifadə olunur. Yaradılan şəraitdən səmərəli istifadənin nəticəsidir ki, bölgədə bu sahədə qazanılan uğurlar ildən-ilə artır. Bu baxımdan 2016-cı il də istisna deyil. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, rayonda ötən il kənd təsərrüfatı sektorunda 59 milyon 255,4 min manatlıq məhsul istehsal edilib. Bu da əvvəlki illə müqayisədə 7,1 faiz çoxdur. Bir məsələni də qeyd edək ki, bu nəticənin əldə edilməsində torpaq mülkiyyətçilərinə verilən güzəştli kreditlər də mühüm rol oynayır. Bəhs olunan dövrdə rayonda 449 nəfər torpaq mülkiyyətçisi, ümumilikdə, 786,3 min manat kredit alıb. Kreditlərin 533,9 min manatı heyvandarlığın, 159,4 min manatı əkinçiliyin, 92 min manatı arıçılığın, 1000 manatı meyvəçiliyin inkişafına yönəldilib.

Culfa rayonunun iqtisadiyyatında gəlirli sahələrdən birinə çevrilən taxılçılığa maraq ildən-ilə artır. Bu baxımdan ötən il də culfalılar üçün uğurlu sayıla bilər. Bəhs olunan dövrdə rayonda 4974 hektar dənli və dənli-paxlalı bitkilərin əkin sahəsindən 13822 ton, 508 hektar dənli-paxlalı əkini sahəsindən 1625 ton məhsul yığılıb. Rayonun torpaq mülkiyyətçiləri strateji məhsul olan taxılın əkilibbecərilməsinə xüsusi önəm verirlər. Bu sahədə uzun illər qazanılan təcrübə, həyata keçirilən stimullaşdırıcı tədbirlər taxılçılıqda əldə edilən uğurların ilbəil artmasını təmin edib. Bu baxımdan ötən il də istisna deyil. Culfanın torpaq mülkiyyətçiləri 4050 hektarı buğda, 416 hektarı arpa olmaqla, 4466 hektar sahədən 12 min 197 ton məhsul götürüblər. Ötən ilin payızında cari ilin məhsulu üçün, ümumilikdə, 5896 hektar olmaqla, 4831 hektarda buğda, 1065 hektarda arpa əkilib. Artıq yazlıq taxıl əkinlərinə başlanılıb.

Muxtar respublikada kartofçuluğun inkişafı ilə bağlı qəbul edilmiş və uğurla başa çatdırılmış Dövlət Proqramı bölgənin torpaq mülkiyyətçilərinin bu sahədə yüksək göstəricilər qazanmasına imkan verib. Ötən il onlar 460 hektar sahədən 5098 tondan yuxarı məhsul toplayıblar.

130 hektar sahədə bostan bitkiləri əkilib-becərilib. Sahələrdən 1827,8 ton məhsul yığılıb. 98 hektarda əkilmiş dən üçün qarğıdalı sahəsindən 443 ton, 10 hektarda dən üçün günəbaxan əkini sahəsindən 30 ton məhsul yığılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" isə bu sahələrin inkişaf etdirilməsinin gələcək perspektivlərini müəyyənləşdirib. Proqramın icrası istiqamətində cari ilin ötən dövründə xeyli iş görülüb, meyvə bağlarının sahəsi genişləndirilib. Barverən meyvə bağlarından 3241,1 ton meyvə, 489 hektar tərəvəz bitkiləri əkini sahəsindən 8230 ton tərəvəz istehsal olunub. Rayonda üzümçülükdə xeyli təcrübə qazanılıb. Son illərdə bu sahəyə maraq xeyli artıb. Üzümçülər bəhs olunan dövrdə üzüm bağlarından 5897 ton məhsul istehsal ediblər.

Rayonda heyvandarlığın inkişafı da diqqət mərkəzində saxlanılan sahələrdən biridir. Ötən il rayonda diri çəkidə 3767 ton ət, 9 min 452 ton süd, 5 milyon 864 min ədəd yumurta, 148,4 ton yun istehsal edilib.

Culfalıların iqtisadiyyatına gəlir gətirən sahələr içərisində arıçılığı da xüsusi qeyd etmək olar. 2016-cı ildə rayonda 272 ton bal məhsula sahib olunub.

Artıq 2017-ci ilin ilk rübü arxada qalıb. Rayonun torpaq mülkiyyətçiləri bu il də uğurla başlayıblar. Yazlıq arpa, bostan, tərəvəz, kartof, dənli-paxlalı bitkilərin əkinləri sürətlə davam etdirilir. Rayonun Yaycı, Bənəniyar, Dizə, Ərəzin kəndləri bu prosesdə daha irəlidə gedir. Yaycılı torpaq mülkiyyətçiləri Salman Abbasov, Rza Əsgərov, bənəniyarlı Surxay Allahverdiyev, dizəli Abbas Tağıyev, ərəzinli Ağalar Məmmədov rayonda aqrar sahənin inkişafı üçün yaradılan şəraitdən razılıqlarını bildirərək dedilər ki, bu gün muxtar respublikanın hər yerində olduğu kimi, Culfada da torpaq daimi iş yerinə çevrilib. Bu qiymətli sərvət bu gün kənd adamının halal qazanc mənbəyidir. Odur ki, torpaqla ünsiyyətdə olanlar onun qədrini bilir, dövlətin yaratdığı şəraitdən səmərəli istifadə edir, öz gün-güzəranlarını yaxşılaşdırır, muxtar respublikanın, nəticə etibarı ilə, ölkənin iqtisadi qüdrətinin artmasına öz töhfələrini verirlər.

Culfalı torpaq mülkiyyətçiləri ilə söhbətdən belə qənaətə gəldik ki, kənd adamları 2017-ci təsərrüfat ilini də uğurla başa vuracaq, yeni uğurlara imza atacaqlar.

**Muxtar MƏMMƏDOV**

## Müasir cihaz və avadanlıqlardan istifadə torpaqların elektron kadastr xəritələrinin keyfiyyətlə hazırlanmasına şərait yaradıb

***Sosial-iqtisadi problemlərin həllində, dinamik inkişafın təmin edilməsində torpaq münasibətlərinin tənzimlənməsi əhəmiyyətli rol oynayır. Bu sahədə həyata keçirilən mühüm tədbirlərdən biri də torpaqların plana alınması və xəritələşmə işlərinin aparılmasıdır.***

Həmin tədbirlərin uğurla həyata keçirilməsinə məsul olan Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi üçün yeni binanın istifadəyə verilməsi, komitə əməkdaşlarına hərtərəfli iş şəraitinin yaradılması, müəssisəyə yeni avadanlıq və çöl-ölçmə cihazlarının alınması bu istiqamətdə görülən işlərin keyfiyyətinə mühüm təsir göstərib.

Komitədən aldığımız məlumata görə, İsveçrənin "Leica Geosystems" firmasının istehsal etdiyi ən yüksək keyfiyyətə malik olan elektron taxeometrlərin və GPS cihazlarının alınması planaalma və xəritələşmə işlərinin, elektron kadastr xəritələrinin yüksək dəqiqlik və keyfiyyətlə hazırlanmasına şərait yaradıb. Belə ki, GPS avadanlığı yer üzərində dəqiq geodeziya əlaqələndirmə və oriyentirləmə işlərinin aparılmasına köməklik edir və aparılan ölçmə işlərinin əmək məhsuldarlığını 10-15 dəfə artırır. Bu isə köhnə üsulla aparılan geodeziya işlərindən dəqiqlik və vaxt itkisi baxımından fərqlənir.

Məlumatda qeyd olunur ki, hazırda komitənin istifadəsində 1 ədəd əl GPS avadanlığı, 11 ədəd GPS, 15 ədəd elektron taxeometr, 4 ədəd lazerli məsafəölçən alətləri var. Bunlardan 1 ədəd əl GPS, 1 ədəd GS-14 markalı GPS, 3 ədəd TS-09 markalı taxeometr, 4 ədəd lazerli məsafəölçən aləti 2016-cı ildə alınmış ən müasir geodeziya avadanlıqlarıdır. Bu alətlər geodeziya işlərinin bütün sahələrində istifadə olunmaq üçün hazırlanıb. Yeni avadanlıqlar proqressiv texnologiyası ilə seçilir, geodeziya işlərinin aparılmasını çox yüngülləşdirir, xəritələşdirmədə, ərazilərin plana alınmasında və müxtəlif layihələrin yerə köçürülməsində xüsusi əhəmiyyət kəsb edir. Bunun nəticəsidir ki, cari ilin mart ayında mütəxəssislər tərəfindən Naxçıvan şəhərində 292 hektar torpaq sahəsində mülkiyyət növündən asılı olmayaraq 595 konturda planalma işləri aparılıb, Şərur rayonunun Yengicə kənd yaşayış məntəqəsində isə 386 həyətyanı torpaq sahələri plana alınıb.

Qeyd edək ki, çöl-ölçmə işlərində çalışan mütəxəssislər xüsusi geyim formaları ilə də təmin olunublar.

**Xəbərlər şöbəsi**

***Kiçik sahibkarlığın inkişafı hər bir ölkənin iqtisadiyyatı üçün mühüm amillərdən sayılır. Çünki sahibkarlığın bu formasını inkişaf etdirmədən heç bir halda dayanıqlı inkişafa nail olmaq mümkün deyil. Kiçik sahibkarlıq subyektləri gündəlik tələbat məhsullarına olan ehtiyacların ödənilməsində böyük rola malik olmaqla, eyni zamanda vergi ödəmələrinə görə büdcədə mühüm yer tutmasına görə seçilir.***

*İstehsal müəssisələri*

## *"AY-Beton"* müəssisəsində keyfiyyətli məhsullar istehsal olunur



Bundan əlavə, böyük sahibkarlıq subyektlərindən fərqli olaraq, kiçik sahibkarlıq subyektləri biznesdə ehtimal olunacaq böhranlara qarşı daha çox davamlıdır və bu cür vəziyyətlərdə daha tez toparlana bilirlər. Digər tərəfdən, biznesə başlayarkən sərmayə həcminin böyük olmaması, sahibkarın maliyyə işlərindən tutmuş reklam işləri və idarəetməyədək hər sahəyə birbaşa nəzarət etməsi, bunun da nəticəsində hərtərəfli təcrübə qazanması onu daha da maraqlı edir.

Ötən yazılarımızda qeyd etdiyimiz kimi müasir dövrdə dünyanın inkişaf etmiş ölkələrində biznesin ən geniş yayılmış forması kiçik sahibkarlıqdır. Alman iqtisadi möcüzəsinin bel sütununu təşkil edən kiçik və orta sahibkarlıq subyektləri bu gün milyonlarla insanın iş yerinə çevrilib. Təcrübə də göstərir ki, kiçik biznesdə uğur qazanmağın başlıca səbəbi ölkədəki sabitlik, dövlətin bu sahənin inkişaf etdirilməsinə marağı və dəstəyidirsə, digər tərəfdən sahibkarların öz işlərinə sevgi ilə yanaşmasıdır. Məhz bu iki amil birləşdikdə sahibkarlar istehsal etdikləri məhsullarla dəyər qazandırmağı bacarırlar.

Son illərdə muxtar respublikamızda özəl sektorun inkişaf etdirilməsinə yaradılmış münbit şərait çoxsaylı kiçik sahibkarlıq subyektlərinin fəaliyyətə başlamasına səbəb olub. Bu sahədə atılmış addımların nəticəsidir ki, bu gün regionumuzda kənd təsərrüfatı məhsullarından tutmuş mebel sənayesinədək, dərman bitkilərinin emalından tikinti sektorunadək xeyli sayda kiçik və orta sahibkarlıq subyektləri fəaliyyət göstərir. Vaxtaşırı olaraq oxucularımız qəzetimiz vasitəsilə bu cür sahibkarlıq subyektləri ilə tanış olur, onların fəaliyyəti ilə bağlı məlumatlar alırlar. Elə bu dəfə də fəaliyyəti ilə tanış olduğumuz sahibkar öz işinə böyük məhəbbətlə yanaşan, ailə təsərrüfatını kiçik biznesə çevirməyi bacaran, nəticədə, əlavə bir neçə nəfər üçün də iş yeri yaradan istehsalçılarımızdandır.

"AY-Beton" divar daşları istehsalı müəssisəsi Culfa rayonunun Yaycı kəndində yerləşir. Müəssisə haqqında ilk dəfə Culfa rayonuna növbəti səfərimdə eşitmişdim. Tanıdıqlarımdan bir neçəsinin onun məhsulu barədə ağızdolusu danışması məndə müəssisə ilə yaxından tanış olmağa maraq oyatdı və beləliklə yolumu bu kəndədən saldım.

Yaycı Culfa rayonunun ən böyük kəndi olsa da, kənddə Nadir Vəlixanovun adını çəkən kimi müəssisənin yerini hamı sənə göstərə bilər. Elə biz də bu soraqla müəssisəyə gəlib çatdıq. Müəssisənin rəhbəri Nadir Vəlixanovla hal-əhval tutduqdan sonra gəlişimizin məqsədini dedik. Sahibkar əvvəlcə bizi müəssisə ilə tanış etdi. Müsahibimiz bildirdi ki, sovet dövründə tikinti sektorunda iş icraçısı olaraq çalışması sonradan onu belə bir müəssisə yaratmağa sövq edib. Kəndin boş ərazilərindən birində hazırda fəaliyyət göstərən müəssisəni qurub. 2007-ci ildən fəaliyyət göstərən müəssisədə ilk olaraq qəliblərdə beton divar daşları istehsal edilib. Standartlara uyğun istehsal edilən divar daşları keyfiyyəti ilə seçilib və tezliklə Yaycı kəndi də daxil olmaqla ətraf kəndlərdən özünə xeyli alıcı toplayıb. İşə başladığı ilk illərdə müəssisədə işləyən özü və iki oğlu – Asiman və Yasin olub. Nadir Vəlixanov müəssisənin ad seçimində də övladlarının adındakı ilk hərfləri əsas götürüb. Beləliklə, "AY-Beton" divar daşları istehsalı müəssisəsi Vəlixanovların birgə zəhməti hesabına əsl ailə təsərrüfatı kimi formalaşıb, sonradan isə kiçik sahibkarlıq subyektinə çevrilib. İran İslam Respublikasından betonqarışdıran, betonu qəliblərə yayan avadanlıqlar və müxtəlif formalı və ölçülü qəliblər alıb gətirərək müəssisənin fəaliyyətini daha da genişləndirib. Öyrəndik ki, hazırda müəssisədə beton divar daşları ilə yanaşı, su quyuları üçün beton halqalar, bordürlər, döşəmə kilid daşları da istehsal olunur. Bu məhsullar üçün yerli xammaldan istifadə edilir. Müəssisəyə məxsus "ZİL-130" markalı yükünüözüboşaldan avtomobillə Naxçıvan şəhərindən qum, sement gətirilir. Betonqarışdıran avadanlıqlarla qarışdırılan beton aidiyyəti üzrə qəliblərə tökülür, müəyyən müddətdən sonra qurutma sahələrinə sərilir.

Sahibkarın sözlərinə görə, son bir neçə ildə müəssisədə istehsal olunan kilid daşlara alıcılar tərəfindən maraq artıb. Hazırda burada 6 modeldə və 2 ölçüdə (30x30 sm, 40x40 sm) döşəmə daşlar istehsal olunur. Cari ildən müəssisəyə alınmış yeni qəliblər vasitəsilə burada su arxları və divar kənarları üçün nəzərdə tutulmuş üzlük daşlar da istehsal ediləcək. Keyfiyyəti və qiymətinin münasibliyi ilə seçilən məhsullara Culfa, Ordubad rayonları ilə yanaşı, Naxçıvan şəhərindən də tələbat vardır. Öyrəndik ki, hazırda müəssisədə 4 nəfər kənd sakini işlə təmin olunub. Nadir Vəlixanov qazandıqları uğurların səbəbini sahibkarlığa göstərilən dövlət qayğısı, istehsal etdikləri məhsulların keyfiyyəti və bunun da nəticəsində qazandıqları müştəri məmnuniyyəti ilə əlaqələndirdi. Sahibkar onu da vurğuladı ki, dövr dəyişdikcə zamanın tələblərinə uyğun keyfiyyətli məhsul istehsal etmək, istehlakçı kütləsinin həcmini böyütmək istehsalçının qarşısında duran mühüm vəzifə olmalıdır. Çalışacağıq ki, iqtisadiyyatımızın inkişafına öz töhfəmizi verək.

*Bəli, bu gün keyfiyyətli məhsul istehsal etmək bütün sahibkarlarımızın ümdə vəzifəsinə çevrilməlidir. Unutmayaq ki, biznes yalnız fəaliyyət istiqamətlərini düzgün müəyyənləşdirənlər üçün qazanc mənbəyidir. Sahibkar üçün qazanc həm də istehsal etdiyi məhsulun dəyərini yaratmaqdır. Keyfiyyətli məhsul isə əsl təbliğat vasitəsidir. Çünki müasir dövrdə ölkələr tarixi, mədəniyyəti, təbiəti ilə yanaşı, həm də dəyərli və keyfiyyətli məhsulları ilə təbliğ olunurlar.*

**Səbuhi HƏSƏNOV**

***1993-cü il aprel ayının 2-də Ermənistan silahlı qüvvələri öz havadarlarının köməyi ilə Qafqazın zümrüd qaşı hesab olunan Kəlbəcər rayonunu işğal ediblər. Kəlbəcər rayonu Azərbaycanın qədim yurd yerlərindən biridir. Buradakı toponimlərin hamısı türk mənşəlidir. Bir sıra qədim türk tayfalarının adı bu gün də həmin toponimlərdə yaşayır.***

# Kəlbəcərin işğalından 24 il ötür



Tarixçilər bildirirlər ki, "Kəlbəcər" toponiminin mənşəyi qədim türk dilində (oykonimin ilkin forması "Kevliçer" kimi qəbul edilib) "çay üstündə qala" deməkdir. Kevli "çayın üstü", çer/car "qala" mənasını verir. Yaşayış məntəqəsinin yerləşdiyi qayada Tərtərçay boyunca cərgə ilə düzülmüş qədim mağaralar mövcuddur. Buna görə də mütəxəssislər toponimi kevil/kəvl və qədim türk dillərindəki cər (qaya, yarğan) komponentləri ilə əlaqələndirirlər. Rayon ərazisində 30 min ildən çox tarixi olan qədim yaşayış məskənləri, 6 min il yaşı olan qaya təsvirləri, çöpşəkilli qədim türk əlifbası nümunələri aşkar edilib. Rayonda "Türk qəbiristanlığı" adı ilə tanınan bir neçə qədim məzarlıq var. Bunların ən böyüyü Tirkeşəvənd, Kəlbəcər, Zar və başqa kəndlərin ərazisindədir. Tədqiqatçılara görə, Kəlbəcər ərazisində ibtidai insanın təşəkkül tapması və formalaşması dördüncü geoloji dövrlə bağlıdır ki, bu da 4 milyon ildən artıq bir tarix deməkdir. Buradakı mağara düşərgələrində aparılmış arxeoloji tədqiqatlar sübut edir ki, ibtidai insan icmasının ilk əmək alətləri həm də bu yerlərdə yaradılıb.

Qarabağın qala qapısı adlanan Kəlbəcər ermənilərin Qarabağdan kənarda yerləşən Laçından sonra işğal etdikləri ikinci rayondur. Xalqımızın başına gətirilən digər soyqırımlara, işğal olunmuş ərazilərimiz kimi, Kəlbəcərin işğalına da ilk dəfə öz münasibətini bildirən, bu hadisəni kəskin pisləyən, günahkarların cəzalandırılmasını tələb edən ümummilli liderimiz Heydər Əliyev olub. Ulu öndərimiz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi 1993-cü il aprelin 1-də keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin iclasında deyib ki, bu günlər cəbhə bölgələrindən, xüsusilə Kəlbəcərdən çox həyəcanlı xəbərlər alınır. Erməni ordusu Kəlbəcərə qarşı genişmiqyaslı hücuma keçərək bu rayonu işğal etməyə çalışır. Ulu öndərimiz Kəlbəcərə erməni hücumlarını kəskin pisləyib, ölkə rəhbərliyini rayonun müdafiəsinə çağırıb. Ancaq ozamankı hakimiyyət bu çağırışlara heç bir reaksiya verməyib və Azərbaycanın bu qədim rayonu taleyin ümidinə buraxılaraq ermənilərə təslim edilib.

Qeyd edək ki, ermənilər 1993-cü il mart ayının 27-dən aprelin 2-dək 50 min nəfərdən çox əhalisi və 1936 kvadratkilometr ərazisi olan Kəlbəcər rayonunu, o cümlədən 10 min nəfərə yaxın əhalisi olan Kəlbəcər şəhərini, dünya şöhrətli İstisu kurortunu, 130 kəndi işğal ediblər. Ümumiyyətlə, erməni təcavüzü nəticəsində ilkin hesablamalara görə, hazırkı qiymətlərlə, təxminən, 2 milyard 280 milyon manat dəyərində maddi ziyan dəyib. Kəlbəcərin işğalı zamanı 220 mülki vətəndaş qətlə yetirilib, 125 nəfər itkin düşüb və ya girov götürülüb, ümumiyyətlə, rayon üzrə 511 nəfər vətəndaş şəhid olub. Bunların 265 nəfəri hərbçilər, 246 nəfəri mülki vətəndaşlardır. İtkin düşmüş mülki vətəndaşlardan 6 nəfəri azyaşlı uşaqdır. Neçə-neçə qız-gəlinlərimiz düşmən əlinə keçməmək üçün özlərini qayadan atıb, çayda boğularaq intihar ediblər. Bir çox yaşayış məntəqələri vəhşiliklə dağıdılıb. Rayona məxsus 13 min yaşayış evi, 500 ictimai bina, 96 orta məktəb, 76 səhiyyə müəssisəsi, 62 körpü, 37852 hektar meşə sahəsi, 4 tarixi abidə, 172 mədəniyyət ocağı, 100 minlərlə baş mal-qara, qoyun-quzu və digər maddi-mədəni sərvətlər düşmən işğalında qalaraq talan edilib, yandırılıb və erməni xislətinə uyğun vəhşiliklə dağıdılıb.

Beynəlxalq ictimaiyyət Kəlbəcərin işğalına və ümumilikdə, Ermənistan silahlı qüvvələrinin, onların himayəçilərinin işğalçılıq hərəkətlərinə kəskin etirazını bildirib. Rayona erməni təcavüzü başlayandan dərhal sonra Azərbaycan bölgədə yaranmış vəziyyət haqqında BMT-nin Baş katibinə və Təhlükəsizlik Şurasının sədrinə məlumat verib. Azərbaycan dövləti Təhlükəsizlik Şurasından təcili iclas çağırmağı və Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləməyi tələb edib. Azərbaycanın bu tələbi qardaş Türkiyə tərəfindən müdafiə olunub. Məhz Kəlbəcərin işğalından sonra Türkiyə Cümhuriyyəti Ermənistanla sərhədini bağlayıb və bu gün erməni lobbisinin, həmçinin bəzi maraqlı dövlətlərin etirazlarına baxmayaraq, qardaş ölkə rəsmi İrəvanla diplomatik əlaqə qurmur. Sərhədlərin açılması məsələsinin isə yalnız Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsindən sonra mümkün olacağını qətiyyətlə bəyan edir.

Ermənilər, sözün həqiqi mənasında, barbar, vəhşi bir xalq olduqlarını Kəlbəcərin işğalı zamanı da bir daha göstəriblər. O vaxtlar çoxlu sayda tarixi-mədəni abidələr erməni silahlı qüvvələri tərəfindən vəhşicəsinə dağıdılıb. Rayonun Vəng kəndi ərazisində Alban məbədi, Çərəkdar kəndində Alban kilsəsi (Həsən Cəlal kilsəsi), Qanlıkənd ərazisində Lök qalası, Qaraçənli kəndində Uluxan qalası, Tərtər çayının Bulanıq çayı ilə qovşağında yerləşən Alban kilsəsi, Qalaboynu kəndində Qalaboynu qalası, Comərd kəndində Comərd qalası, Camışlı kəndində Keşikçi qalası, Kəlbəcər şəhərində, Başlıbel kəndində, Otaqlı kəndində məscidlər, Soyuqbulaq kəndində Tərtər çayı üzərindəki Tağlıdaş körpüsü, Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi, Aşıq Şəmşir adına Mədəniyyət Evi, Söyüdlü yaylağında Seyid Əsədullanın ziyarətgahı işğal zonasında qalaraq Ermənistan silahlı qüvvələri tərəfindən məhv edilib. Kəlbəcərə dünya şöhrəti qazandırmış Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Tutxun, Mozçay, Qoturlusu kimi çox böyük müalicə-balneoloji təsirə malik mineral su yataqları da bu gün işğal ərazisində qalmaqdadır.

Bununla bərabər onu da qeyd etmək yerinə düşərdi ki, 1992-1993-cü illərdə və 1993-cü ilin sonu, 1994-cü ilin əvvəllərində Kəlbəcər uğrunda gedən döyüşlərdə hərbçilərimiz son nəfəslərinə qədər mənfur düşmənlə döyüşərək şəhid olublar. Neçə-neçə Vətən oğlu 1992-ci ildə Vəng, Narınclar, Yanşaq, Bağlıpəyə, 1994-cü ilin əvvəllərində isə Qanlıkənd, Çəpli, Murovdağ döyüşlərində qəhrəmanlıqla vuruşaraq torpaq uğrunda canlarını qurban veriblər. Kəlbəcər uğrunda gedən döyüşlərdə şəhid olmuş hərbçilərdən 3 nəfəri ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb, 7 nəfərə isə "İgidliyə görə" medalı verilib.

Bu gün dünyanın bütün beynəlxalq təşkilatlarının Ermənistanı işğalçı dövlət kimi qəbul etməsi, Azərbaycanın ərazi bütövlüyünü tanıması işğal altında olan torpaqlarımızın tezliklə azad edilməsinə ümidləri artırır. Reallıq budur ki, Azərbaycan işğal altında olan torpaqlarını qan tökülmədən, sülh, barış yolu ilə həll etməyə çalışır. Bunun əks variantı da istisna deyil. Ötən ilin aprel döyüşləri bütün dünyaya göstərdi ki, hazırkı status-kvo qəbuledilməzdir və Azərbaycan istənilən vaxt öz ərazi bütövlüyünü təmin etməyə qadirdir. Əlbəttə ki, xalqımızın da səbri sonsuz deyil. İctimaiyyət əmindir ki, problem sülh yolu ilə həllini tapmadığı zaman son sözü Cənubi Qafqazın ən qüdrətli ordusu olan Azərbaycan Silahlı Qüvvələri deyəcək. Bunun üçün isə xalqın qətiyyəti, Ali Baş Komandan cənab İlham Əliyevin iradəsi və dövlətimizin iqtisadi qüdrəti vardır.

✍ **Səbuhi HƏSƏNOV**

# Şeir müsabiqəsinə yekun vurulub

*Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin birgə təşkilatçılığı ilə 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar muxtar respublikada fəaliyyət göstərən tam orta məktəblərin şagirdləri arasında bədii qiraət üzrə şeir müsabiqəsi keçirilib.*

Müsabiqədən əvvəl Təhsil Nazirliyi Aparatının Məktəblər və liseylərlə iş şöbəsinin müdiri Rüstəm Həsənov, Gənclər və İdman Nazirliyi Aparatının Gənclərlə iş şöbəsinin müdiri Nicat Babayev və Yazıçılar Birliyinin üzvü Əbülfəz Əliyev çıxış edərək tədbirin keçirilməsinin mahiyyəti haqqında iştirakçılara məlumat veriblər.

Bildirilib ki, tədbirin keçirilməsində məqsəd 31 mart soyqırımının anılması, məktəblilərdə vətənpərvərlik, Vətənə məhəbbət hisslərinin yüksəldilməsi, istedadlı şagirdlərin üzə çıxarılmasıdır.

Şeir müsabiqəsi iki mərhələdə keçirilib. Belə ki, rayon (şəhər) mərhələsində qalib olmuş məktəblilər muxtar respublika mərhələsində iştirak ediblər.

Münsiflər heyətinin qərarına əsasən, Şərur rayon Axaməd kənd tam orta məktəbinin şagirdi Ramilə İsmayılova qalib adını qazanıb. Digər iki pillədə Naxçıvan şəhər 13 nömrəli tam orta məktəbin şagirdi Rza Babayev və Naxçıvan şəhər Qızlar Liseyinin şagirdi Nuray İsmayılova qərarlaşıblar.

Qaliblərə diplom, fəxri fərman və hədiyyələr təqdim olunub.

# *"Şahin"* hərbi-idman oyunu keçirilib

***Şahbuz rayonundakı "N" hərbi hissədə rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon bölməsinin birgə təşkilatçılığı ilə respublika əhəmiyyətli "Şahin" hərbi-idman oyununun Şahbuz rayon birinciliyi keçirilib.***



Birincilikdə 7 məktəbdən 98 şagird iştirak edib. Birinciliyin açılış mərasimində rayon Gənclər və İdman İdarəsinin rəis əvəzi İdris Qəhrəmanov, İcra Hakimiyyətinin əməkdaşı Söhrab Kərimov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon bölməsinin əməkdaşı Məmməd Hüseynov, Təhsil Şöbəsinin əməkdaşı Fikrət Cəfərov çıxış edərək "Şahin" hərbi-idman oyununun keçirilməsinin əhəmiyyəti haqqında şagirdlərə geniş məlumat verib, yarışın şərtlərini iştirakçıların diqqətinə çatdırıblar.

Sonra yarışa start verilib. Gərgin və maraqlı keçən mübarizədə Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin komandası qalib olub. Biçənək kənd tam orta məktəbinin komandası ikinci, Kükü kənd tam orta məktəbinin komandası isə yarışı üçüncü pillədə başa vurublar.

Sonda qaliblər təşkilatçılar tərəfindən diplom və kubokla mükafatlandırılıblar.

# İdmançımız Asiya oyunlarının qalibi olub

Bakı şəhərində MMA qaydasız döyüş növünün tempo versiyası üzrə Asiya oyunları keçirilib. Oyunlarda Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının yetirmələri də mübarizə aparıblar. İdmançılarımız bu yarışda uğurlu çıxış etməklə mükafatçılar sırasına düşüblər. Belə ki, 80 kiloqram çəki dərəcəsində mübarizə aparan Səyyad Məmmədov bütün rəqiblərinə qalib gələrək Asiya oyunlarında baş mükafatı qazanıb. Digər təmsilçimiz Heydər Quliyev isə 40 kiloqram çəki dərəcəsində mübarizə aparıb. Yalnız final görüşündə məğlub olan təmsilçimiz gümüş medal qazanıb.

Sonda qalib idmançılarımıza təşkilatçılar tərəfindən diplom, medal və hədiyyələr təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

# Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına
## *2017/2018-ci tədris ili üçün əyani təhsil üzrə tələbə qəbulu qaydaları*

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına 2017/2018-ci tədris ili üçün əyani təhsil üzrə qəbula namizədlər boyu 170 santimetrdən az olmayan, tam orta təhsilli və ya tam orta məktəbin buraxılış sinfində oxuyan, 15.09.2017-ci ilədək 17 yaşı tamam olan, yaxud müddətli həqiqi hərbi xidmətini başa vuraraq ehtiyata buraxılmış və 15.09.2017-ci ilədək 23 yaşı tamam olmayan Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilir.

Akademiyaya qəbul olmaq arzusunda olanlar Fövqəladə Hallar Nazirliyinin xüsusi həkim-ekspertiza komissiyasından və Fövqəladə Hallar Nazirliyi tərəfindən qəbul edilmiş qaydalara müvafiq olaraq fiziki hazırlıq və seçmə komissiyalarında sınaqdan keçməlidirlər.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı test imtahanlarında iştirak etmək üçün Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına göndərilir.

Qəbul imtahanı test üsulu ilə I ixtisas qrupuna daxil olan fənlər üzrə keçirilir.

Test imtahanlarının keçirilməsi qaydaları ilə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının internet saytında və kütləvi informasiya vasitələrində verilən elanlar vasitəsilə tanış olmaq olar.

Akademiyaya qəbul olan şəxslər təhsil müddətində yemək, geyim forması və yataqxana ilə təmin olunur, təqaüd alırlar.

Akademiyada təhsil müddəti 4 ildir və tədris Azərbaycan dilində aparılır.

Akademiyanın məzunlarına müvafiq olaraq Yanğın təhlükəsizliyi mühəndisliyi, Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi ixtisasları üzrə bakalavr dərəcəsi verilir. Onlar zabit və ya orta rəis heyəti rütbələri verilməklə Fövqəladə Hallar Nazirliyi sistemində vəzifələrə təyinat alırlar.

Akademiyaya qəbul olmaq istəyənlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*-tərcümeyi-hal (şəxsən yazılmış);*

*-şəxsiyyət vəsiqəsinin və doğum haqqında şəhadətnamənin notarial qaydada təsdiq olunmuş surəti;*

*-hərbi biletin və ya hərbi xidmətə çağırış məntəqəsinə təhkimedilmə vəsiqəsinin əsli və notarial qaydada təsdiq olunmuş surəti;*

*-tam orta məktəbdən, işlədiyi təqdirdə iş yerindən və ya hərbi hissədən xasiyyətnamə;*

*-tam orta təhsil haqqında sənədin əsli və notarial qaydada təsdiq olunmuş surəti, yaxud tam orta məktəbin buraxılış sinfində oxuması haqqında müəyyən olunmuş formada arayış;*

*-yaşayış yerindən arayış (daimi qeydiyyat yerində yaşamadığı halda);*

*-xüsusi həkim-ekspertiza komissiyasına təqdim olunması üçün yaşayış yeri üzrə Psixi Xəstəliklər, Vərəm və Dəri-Zöhrəvi dispanserlərindən və QİÇS haqqında arayışlar, qeydiyyat yeri üzrə poliklinikaya son 5 il ərzində müraciətləri haqqında qısa epikriz;*

*-4 ədəd 6x4 santimetr ölçüdə rəngli fotoşəkil (ağ fonda, tünd rəngli pencəkdə).*

*Sənədlər 2017-ci il aprelin 1-dən 30-dək (bazar günləri istisna olmaqla) saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsində (Naxçıvan şəhəri, Ə.Əliyev küçəsi 25) qəbul ediləcək.*

***Əlaqə telefonu: 545-41-66***

### *İtmişdir*

Naxçıvan şəhəri, Atabəylər məhəlləsi, bina 3, mənzil 4-də yaşayan Hüseynov Vaqif Əliyar oğlunun adına olan 6990 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor müavini:** RAUF KƏNGƏRLİ

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:* Muxtar Məmmədov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 269**